# Əraf surəsi, 32-33 (Xurafatçılar xurafatla, Allahın halal etdiklərini haram edər, Allah adına yalan danışarlar)

ADNAN OKTARIN A9 TV-DƏKİ CANLI SÖHBƏTİ (12 DEKABR 2011; 22:00)

ADNAN OKTAR: Bax, Allah təala, Əraf surəsi, 32-33-cü ayələrdə buyurur: **"De ki, Allahın qulları üçün üzə çıxartdığı zinəti"-**zinət nədir? Bəzək əşyaları "...**Və təmiz ruziləri kim haram etmişdir?"** Kim haram edir? Xurafatçılar, müşriklər. Diqqət edin: **"Allahın, haqqında heç bir dəlil nazil etmədiyi bir şeyi Ona şərik qoşmağınızı"**-yəni *"Allah belə dedi"* deyərək yalan danışağı-**"və bilmədiyiniz şeyləri Allahın əleyhinə söyləməyinizi haram buyurmuşdur",** deyir. Sən nə deyirsən? *"Allah dedi"* deyərək, Allah adına yalan danışırsan. *"Ayə göstər"* -deyirəm; *"Yox"* deyirsən. Xurafatdır? "Bol" deyirsən.

**ADNAN OKTARIN A9 TV-DƏKİ CANLI SOHBƏTİ (3 NOYABR 2011; 20:00)**

ADNAN OKTAR: Baxın, Əraf surəsi, 32-33-cü ayələr. **"De ki; Allahın qulları üçün üzə çıxartdığı zinəti"** -yəni bəzəkləri, gözəllikləri, müsəlmanların gözəl görünməsi üçün lazımlı hər cür vəsait**-" və təmiz ruziləri ",** halal olan yeməkləri kim haram etmişdir? Xurafatçılar haram edir. Quranla edir? Xeyr, xurafatla. Baxın, Allah təala deyir: **"Haqqında heç bir dəlil nazil etmədiyi bir şeyi"**-yəni Quran ayəsi olmadığı halda-**"nazil etmədiyi şeyi Allaha şərik qoşmağınızı"**, yəni Allah adına hökm vermənizi, bütlər yolu ilə Allah adına hökm uydurmanızı, ortaya hökm gətirmənizi, **"və Allaha qarşı bilmədiyiniz şeyləri deməyinizi Allah haram etmişdir"** deyir. Münafiq, xurafat tayfası qışqıra-qışqıra televiziyada bəzi kanallarda, bütün millətin gözünə baxa-baxa xurafat danışır. Baxın, **"Allaha qarşı bilmədiyiniz şeyləri deməyinizi Allah haram etmişdir."** Quranda var mı? Yoxdur. "*Haradan çıxardırsan? Bütdən çıxarıram"*-deyir. Bunlar üç şeyə düşməndirlər, bir-Quran düşmənliyi, iki-Əhli-Beyt düşmənliyi, gizlicə də Rəsullah (s.ə.v)-ə düşməndirlər, bu alçaqlar. Üç düşmənlikləri vardır bunların, amma hiss etdirməzlər.

https://www.harunyahya.info/az/meqaleler/eraf-suresi-32-33-xurafatcilar-xurafatla-allahin-halal-etdiklerini-haram-eder-allah-adina-yalan-dani